## Vida sözü

# Öz xalqının və öz əsrinin poetik səsi

Kalmıkstanın məşhur xalq şairi David Kuqultinovun ölüm xəbəri məni sarsıtdı. 1997-ci ilin mart ayını xatırladım. 75 yaşı tamam olurdu, məni Elistaya, təntənəli yubiley günlərinə çağırırdı. Yaraşıqlı bir dəvətnamə də göndərmişdi. Gedə bilmədim, teleqram vurub təbrik etdim. İnfarktdan yatırdım.

Mən bir daha bu fikrə gəlirəm ki, bir yazıçı — bəzən bütöv bir xalqı təmsil edə bilər. David Kuqultinov belə əvəzedilməz şəxsiyyətlərdən idi. Onun xalqı da özü kimi Stalin repressiyasının qurbanlarından olmuş, on il tək kamerada yatmışdı. Yalnız Stalinin ölümündən sonra doğma Kalmıkstana — Elistaya qayıda bilmişdi.

Onun yazdığı əsərlər qədim və müasir yüksək mədəniyyəti olan bir xalqın ensiklopedik həyatı kimi qiymətləndirilir, dünyanın müxtəlif dillərinə tərcümə edilirdi.

Unudulmaz şairimiz Adil Babayev Davidin "Ağlın üsyanı" adlı irihəcmli poemasını ilhamla, ehtirasla tərcümə etmiş, əvvəlcə "Azərbaycan" jurnalında, sonra isə ayrıca kitab şəklində nəşr etdirmişdi. David Kuqultinov həmişə razılıq edirdi ki, azərbaycanlı qələm dostlarından (əlbəttə, birinci növbədə məndən və mərhum şairimiz X.R.Ulutürkdən) poemanın tərcüməsi barədə xoş sözlər eşitmişdir.

D.Kuqultinovla biz Moskvada Ali Ədəbiyyat Kurslarında, oxuduğumuz illərdə yaxından tanış və dost-qardaş olmuşduq. Sonralar biz M.Qorki adına Ədəbiyyat İnstitutunu da bitirdik.

David Nikitiçin Moskva ədəbi mühitində, eləcə də bizim təhsil aldığımız Ədəbiyyat İnstitutunda xüsusi yeri və nüfuzu var idi. O, kabardin-balkar xalq şairi Qaysın Kuliyevlə, avar xalqının böyük oğlu xalq şairi Rəsul Həmzətovla, başqırd xalq şairi Mustay Kərimlə, qırğız xalq yazıçısı Çingiz Aytmatovla dost idi, ədəbi görüşlərdə, poeziya simpoziumlarında çıxışlar edirdi, uzaq şəhərlərdə olurdu.

O hələ tələbəlik illərindən Kalmıkstanın xalq şairi adına layiq görülmüşdü.

Davidin "Ağlın üsyanı" poeması, "Moabit dustağı" (tatar xalqının böyük oğlu Musa Cəlilin həyatından) və b. fəlsəfi tutumlu şeirləri dünyanın bir çox dillərinə tərcümə edilmiş, yüksək ədəbi mükafatlarla təltif edilmişdir.

David Kuqultinov nağıllardan tutmuş, demək olar ki, bütün ədəbi janrlarda əsərlər yazmış, kalmıkların ən sevimli sənətkarı, dünyanın ən çox oxunan yazıçılarından olmuşdur.

David Nikitiç Kuqultinov Azərbaycan xalqının və onun yazıçılarının da əziz dostu idi.

Ümummilli liderimiz Heydər Əliyev onun ədəbi yaradıcılığını, natiqliyini və Azərbaycana məhəbbətini yüksək qiymətləndirmiş, dəfələrlə böyük ədəbi tədbirlərə əziz qonaq kimi dəvət etmişdir. Yaradıcı ziyalılara Heydər Əliyevin verdiyi yüksək qiymətə o, heyranlığını bildirir və onun nadir şəxsiyyət olduğunu çıxışlarında dəfələrlə vurğulayırdı.

SSRİ Yazıçılar İttifaqının sədri, görkəmli yazıçı Georgi Markov söhbətlərinin birində deyirdi ki, mən kabinetimdə oturmuşdum, katibə qız qəfildən içəri girdi ki, Heydər Əliyev buraya gəlib, Yazıçılar İttifaqına. Dik atıldım və tez çıxıb qarşıladım. Qucaqlaşıb öpüşdük.



Bizim yazıçıların vəziyyətilə maraqlanırmış. Məni Kremlə çağırıb soruşa da bilərdi. Özü gəlmişdi. Əsl bayram oldu.

Hələ Heydər Əliyevdən başqa, Siyasi Büronun üzvlərindən heç biri Yazıçılar İttifaqının qapısını açmamışdı.

Mən bu sözləri Kalmık xalq şairi, tələbə dostum David Kuqultinovun dilindən eşitmişəm.

Azərbaycanda Sovet ədəbiyyatı günlərində və Füzuli yubileylərində David Kuqultinov Kalmıkstanın xalq şairi kimi alovlu, səmimi çıxışları ilə fərqlənirdi. Füzuli günlərində o, deyirdi ki, mən bilirəm, Azərbaycanın indiki vəziyyəti çətindir, buna baxmayaraq, Heydər Əliyev Füzulinin dünya miqyasında yubileyini keçirir. O, Azərbaycan xalqını dünyaya tanıdır. O, bütün xalqlara hörmət qoyan böyük zəka sahibidir, nadir şəxsiyyətdir.

Kalmıkstanın böyük xalq şairi bizim ədəbiyyat tariximizi mütaliə edir və Nəsimi haqqında poema yazmaq fikrindəydi.

Onun Gülüstan sarayında və Gəncədə Nizami movzoleyində, Gəncə camaatı qarşısında hərarətli çıxışları mənim yaşıdlarımın yaxşı yadındadır.

Hələ tələbəlik illərimizdə Lui Araqon, Nazim Hikmət, Pablo Neruda, Mixail Şoloxov, Samuel Marşak onun şairlik istedadına qiymət verir, bizim yaradıcılıq seminarlarımızda isə Mixail Svetlov, Yaroslav Smelyakov, Sergey Narovçatov, Valeri Dementyev kimi ustad sənətkarlar ona heyran qalırdılar.

David Kuqultinov bizim Qorki İnstitutunu üç ilə bitirdi. Fəlsəfə üzrə müəllimimiz öz mühazirələrindən onu azad etmişdi ki, şeir yaradıcılığı ilə məşğul olsun.

David Nikitiç sözün həqiqi mənasında parlaq simaydı, müdrik idi. X.R.Ulutürk, D.N.Kuqultinov və mən bəzən axşamlar onun qaldığı otaqda (yataqxanada otaqlarımız üz-üzəydi) yığışardıq. Alla xanım (Davidin xanımı), Firəngiz xanım Ulutürk və Sara (mənim xanımım) bizə çay verərdilər. David kalmıkların adət-ənənəsindən danışar, süfrəsinə soyutma mal əti gətirib nimçəni ortaya itələyərdi ki, kəsin, duzlayıb yeyin. Bizim kalmıklar belə yeyirlər.

Özü yerə kilim salar, mütəkkəyə dirsəklənərdi. Ağsaqqallığını saxlayardı. Bizdən doqquz-on yaş böyük idi. Arabir çeçen şairi, bizim dostumuz Məhəmməd Mamazayev də bizə qoşulardı. O da David kimi, Qaysın kimi on il tək kamerada yatmışdı. Stalin zülmünü görmüşdü. Onda ağlımıza gəlməzdi ki, mənim şair qardaşım pak ürəkli Xəlil Rza Ulutürkü də sonralar xalqını sevdiyi üçün Kreml Lefortovo zindanına salacaq, vaxtsız ölümünə bais olacaq. Milli heysiyyət mücəssəməsi Heydər Əliyev isə Xəlili fərqləndirmək üçün ona ən ali mükafat — "İstiqlal" ordeni verəcək.

David söhbətləri zamanı elə həssas, elə səmimi, elə mərhəmətli, elə gülərüz olurdu ki, on il tək kamerada sürgün həyatı çəkənə oxşamırdı. Kalmıkstanın prezidenti K.Ulimjanovu öz oğlu kimi istəyir, prezidentin də ona ata gözü ilə baxmasından şirin söhbətlər edirdi. O, rusca danışanda rus şairləri belə onun aydın diksiyasına, dünyagörüşünə, hazırcavablığına aludəçiliklə qulaq asırdılar. Milli "Canqar" eposunu sinədəftər deyirdi.

Kalmık nəğməkarı kalmıklar haqqında danışdı, oxudu və susdu. Bundan sonra kalmıklar əsr-əsr ondan danışacaq. Və heç vaxt susmayacaq. David Kuqultinovu yetirən xalq dahidir.

David Kuqultinov öz xalqının və öz əsrinin yaddaqalan səsidir.

**Nəriman HƏSƏNZADƏ**
*xalq şairi*
*27.06.06.*